**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 247**

**Bakı şəhəri, 27 may 2019-cu il**

**"İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri"nin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1005-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1913 nömrəli Fərmanının 1.4-cü bəndinin, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1006-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1914 nömrəli Fərmanının 1.4-cü bəndinin, "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1510-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2019-cu il 5 aprel tarixli 609 nömrəli Fərmanının 1.3-cü bəndinin və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1509-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2019-cu il 5 aprel tarixli 608 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. “İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Azərbaycan Respublikasının**
**Baş Naziri** **Novruz Məmmədov**

**İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri (***Nazirlər Kabinetinin 2022-ci il 19 may tarixli 198* nömrəli *qərarı ilə edilmiş dəyişikliklərlə***)**

| Sıra №-si | Xidmətin adı | Ödənilən haqqın məbləği (manatla) |
|---|---|---|
| **1. İxtira, faydalı model və sənaye nümunəsinin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlər** | | |
| 1.1 | İxtira, faydalı model və sənaye nümunəsi obyektindən istifadə hüququnun verilməsi barədə müqavilənin qeydiyyata alınması üçün | |
| 1.1.1. | bir iddia sənədi üçün | 10 manat |
| 1.1.2. | bir neçə iddia sənədi üçün (hər əlavə iddia sənədi üçün) | 10 manat |
| 1.2. | Patent hüququnun girov qoyulması barədə müqavilənin (bir ədəd ixtira patenti, bir ədəd faydalı model patenti və bir ədəd sənaye nümunəsi patenti üzrə, ayrılıqda hər biri üçün) qeydiyyata alınması üçün | 50 manat |
| 1.3. | Lisenziya müqavilələrinin qeydiyyata alınması üçün | |
| 1.3.1. | ixtira, faydalı model və sənaye nümunəsinin hər birinin ayrılıqda bir ədəd patenti üçün | 25 manat |
| 1.3.2. | ixtira, faydalı model və sənaye nümunəsinin hər birinin ayrılıqda bir neçə patenti üçün (birdən artıq nəzərdə tutulan hər patent üçün) | 20 manat |
| 1.4. | İddia sənədi və ya patenti üzrə hüquqların verilməsinə dair qeydiyyata alınmış müqavilələrdə və ya obyektin istifadəsi ilə bağlı qeydiyyata alınmış lisenziya müqavilələrində dəyişikliklər edilməsi üçün | 10 manat |
| 1.5. | İlkin istifadəçinin hüquqlarının tanınması məqsədilə onun iddiasına baxılması üçün | 25 manat |
| 1.6. | İxtira patentinin qüvvədə saxlanılması üçün | |
| 1.6.1. | 3-cü ildən 10-cu ilə kimi | Fiziki şəxslər, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar və bələdiyyələr üçün 10 manat, hər artan il üçün 6 manat artırılmaqla, digər şəxslər üçün 50 manat, hər artan il üçün 30 manat artırılmaqla |

| | | |
|---|---|---|
| 1.6.2. | 11-ci ildən 20-ci ilə kimi | fiziki şəxslər, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar və bələdiyyələr üçün 60 manat, hər artan il üçün 8 manat artırılmaqla, digər şəxslər üçün 300 manat, hər artan il üçün 40 manat artırılmaqla |
| 1.6.3. | 21-ci ildən 25-ci ilə kimi | fiziki şəxslər, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar və bələdiyyələr üçün 142 manat, hər artan il üçün 10 manat artırılmaqla, digər şəxslər üçün 710 manat, hər artan il üçün 50 manat artırılmaqla |
| 1.7. | Faydalı model patentinin qüvvədə saxlanılması üçün | 3 ildən 10 ilə kimi - fiziki şəxslər, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar və bələdiyyələr üçün 10 manat, hər artan il üçün 6 manat artırılmaqla, digər şəxslər üçün 50 manat, hər artan il üçün 30 manat artırılmaqla |
| 1.8. | Sənaye nümunəsi patentinin qüvvədə saxlanılması üçün | |
| 1.8.1. | 3-cü ildən 10-cu ilə kimi | fiziki şəxslər, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar və bələdiyyələr üçün 10 manat, hər artan il üçün 6 manat artırılmaqla, digər şəxslər üçün 50 manat, hər artan il üçün 30 manat artırılmaqla |
| 1.8.2. | 11-ci ildən 15-ci ilə kimi | fiziki şəxslər, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar və bələdiyyələr üçün 60 manat, hər artan il üçün 8 manat artırılmaqla, digər şəxslər üçün 300 manat, hər artan il üçün 40 manat artırılmaqla |
| 1.9. | Patentin qüvvədəolma ilində illik haqqın ödənilməsi ilə bağlı ötürülən müddətin verilməsinə görə hər ay üçün | fiziki şəxslər, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar və bələdiyyələr üçün 3 manat, digər şəxslər üçün 15 manat |
| 1.10. | İddia sənədinin ekspertizası üçün (ilkin ekspertiza da daxil olmaqla) | |

| | | |
|---|---|---|
| 1.10.1. | bir ixtira, bir faydalı model və bir sənaye nümunəsi üçün | 20 manat |
| 1.10.2. | əlavə olaraq, çoxbəndli düsturun 1-dən artıq hər asılı olmayan bəndi üçün | 7 manat |
| 1.10.3. | əlavə olaraq, çoxbəndli düsturun 10-dan artıq hər asılı olan bəndi üçün | 7 manat |
| 1.10.4. | sənaye nümunəsinin 20-dən artıq hər əlavə sənaye nümunəsi üçün | 5 manat |
| 1.10.5. | iddia sənədinin mətninin 30-dan artıq hər səhifəsi üçün | 1 manat |
| 1.11. | Ekspertizanın sorğusuna cavabın verilməsi müddətinin iddiaçının vəsatəti əsasında 1 (bir) ay müddətinə uzadılması üçün | 10 manat |
| 1.12. | İddiaçının vəsatəti əsasında iddia sənədinin mahiyyətcə ekspertizası üçün | |
| 1.12.1. | ixtira | 90 manat |
| 1.12.2. | faydalı model və sənaye nümunəsi | 60 manat |
| 1.12.3. | əlavə olaraq, çoxbəndli düsturun 1-dən artıq hər asılı olmayan bəndi üçün | 25 manat |
| 1.12.4. | əlavə olaraq, çoxbəndli düsturun 10-dan artıq hər asılı olan bəndi üçün | 10 manat |
| 1.12.5. | sənaye nümunəsinin 20-dən artıq hər əlavə sənaye nümunəsi üçün | 10 manat |
| 1.13. | İddia sənədinin verildiyi tarixdən 1 (bir) ay müddət keçdikdən sonra iddiaçının vəsatəti əsasında iddia sənədinin materiallarına düzəliş və əlavələrin edilməsi üçün | 6 manat |
| 1.14. | İddiaçının vəsatəti əsasında ixtira barədə iddia sənədinin faydalı model barədə iddia sənədinə (və ya əksinə) çevrilməsi üçün | 7 manat |
| 1.15. | İddia sənədi üzrə ilkinliyin tələb edilməsi üçün | 20 manat |
| 1.16. | İddia sənədi üzrə ilkinliyin tələb edilməsi müddətinin iddiaçının vəsatəti əsasında 2 (iki) ay müddətinə uzadılması üçün | 30 manat |
| 1.17. | İddia sənədinə dair məlumatın dərc edilməsi üçün | 6 manat |
| 1.18. | İddiaçının vəsatəti əsasında iddia sənədinə dair məlumatın müəyyən edilmiş müddətdən tez dərc edilməsi üçün | 30 manat |
| 1.19. | Dərc edildikdən sonra iddia sənədinin materialları ilə maraqlı şəxslərin tanış olması üçün | 10 manat |
| 1.20. | İddiaçının vəsatəti əsasında iddia sənədi barədə məlumat axtarışının aparılması və hesabatın hazırlanması üçün | |

| | | |
|---|---|---|
| 1.20.1. | ixtira | 70 manat |
| 1.20.2. | faydalı model və sənaye nümunəsi | 60 manat |
| 1.21. | İddia sənədinin beynəlxalq sistem vasitəsilə qeydiyyatı üçün qəbulu, hazırlanması və göndərilməsi | 30 manat |
| 1.22. | İddiaçının xahişi ilə bir ədəd milli iddia sənədinin və ya onun barəsində məlumatların (Patent Kooperasiyası haqqında müqavilənin təlimatının 17.1(v) qaydası, ilkin sənəd) təsdiqlənmiş surətinin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Beynəlxalq Bürosuna göndərilməsi üçün | 10 manat |
| *1.23.* | *İxtiranın, faydalı modelin və sənaye nümunəsinin reyestr məlumatlarından çıxarışın verilməsi üçün* | ***15 manat*** |

| | | |
|---|---|---|
| | **2. Əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlər** | |
| 2.1. | Əmtəə nişanları və coğrafi göstəricilərin qeydə alınması ilə bağlı dövlət rüsumunun ödənilməsi müddətinə əlavə olaraq 4 (dörd) ay müddətində möhlət verilməsi üçün | ***45 manat*** |
| 2.2. | *Əmtəə nişanının və coğrafi göstəricinin* reyestr məlumatlarından çıxarışın verilməsi üçün | ***15 manat*** |
| 2.3. | Qeydiyyata alınmış əmtəə nişanına dair müstəsna hüquqların müqavilə əsasında başqa şəxsə girov kimi verilməsi ilə bağlı girov müqaviləsinin qeydiyyatı üçün | ***90 manat*** |
| 2.4. | Lisenziya müqavilələrinin qeydə alınması üçün | |
| 2.4.1. | bir ədəd əmtəə nişanı üçün | ***120 manat*** |
| 2.4.2. | bir neçə əmtəə nişanı üçün (birdən artıq hər əmtəə nişanı üçün | ***75 manat*** |
| 2.5. | Əmtəə nişanına dair hüquqların verilməsi barədə və qeydə alınmış lisenziya müqavilələrində dəyişikliklərin aparılması üçün | ***17 manat*** |
| 2.6. | Qeydiyyatın qüvvədəolma müddəti qurtardıqdan sonra onun müddətinin uzadılması üçün | |
| 2.6.1. | əmtəə nişanı üçün | ***143 manat*** |
| 2.6.2. | coğrafi göstərici üçün | ***68 manat*** |
| 2.6.3. | kollektiv nişan üçün | ***218 manat*** |
| 2.7. | Qeydiyyatın qüvvədəolma müddəti keçdikdən sonra müddətin uzadılması üçün verilən 6 (altı) ay müddətinə görə, hər ay üçün: | |
| 2.7.1. | əmtəə nişanı üçün | ***8 manat*** |
| 2.7.2. | coğrafi göstərici üçün | ***8 manat*** |

| | | |
|---|---|---|
| 2.7.3. | kollektiv nişan üçün | ***8 manat*** |
| 2.8. | İddia sənədinə aid olan materialların təqdim edilməsi müddətinin iddiaçının vəsatəti əsasında 2 (iki) ay müddətinə uzadılması üçün | ***45 manat*** |
| 2.9. | İddia sənədinin ilkin ekspertizası üçün | ***60 manat*** |
| 2.10. | İddia sənədinin ekspertizası üçün | ***203 manat*** |
| 2.11. | Əmtəə nişanına dair ilkinliyin istənilməsi üçün | ***23 manat*** |
| 2.12. | İddia sənədinin ekspertizası üçün tələb olunan əlavə sənədin verilməsi müddətinin iddiaçının vəsatəti əsasında 2 (iki) ay müddətinə uzadılması | ***38 manat*** |
| 2.13. | İddia sənədinin ekspertizasına başlanıldığı tarixdən 1 (bir) ay müddət keçdikdən sonra iddiaçının vəsatəti əsasında iddia sənədinin materiallarına düzəliş və əlavələrin edilməsi üçün | ***45 manat*** |
| 2.14. | İddia sənədinin beynəlxalq sistem vasitəsilə qeydiyyatı üçün qəbulu, hazırlanması və göndərilməsi üçün | ***60 manat*** |
| **3. Patent müvəkkillərinin attestasiyası ilə bağlı göstərilən xidmətlər** | | |
| 3.1. | Patent müvəkkillərinə namizədin patent müvəkkili kimi attestasiya olunması üçün | 20 manat |
| 3.2. | Patent müvəkkillərinin qeydiyyata alınması üçün | 5 manat |
| 3.3. | Qeydiyyata alınmış patent müvəkkili barədə məlumatların dərc edilməsi üçün | 5 manat |

**Qeydlər:**

1. Əmtəə və ya xidmətin birdən artıq hər sinfi üçün iddia sənədinin ekspertizası üzrə haqq bu cədvəlin 2.10-cu bəndində göstərilən haqqa ***60 manat*** əlavə edilməklə müəyyənləşdirilir.
2. İddiaçının vəsatəti əsasında iddia sənədinin ekspertizasının 1 (bir) ay müddətində aparılması üçün haqq bu cədvəlin 2.10-cu bəndində göstərilən haqqa ***180 manat*** əlavə edilməklə müəyyənləşdirilir.